

# 27 il əvvəl ulu öndər Heydər Əliyevin müdrikliyi ilə Azərbaycan dövlətçiliyi daha bir sınaqdan alnıaçıq çıxdı

***SSRİ-nin süqutundan sonra dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan bir müddət ciddi problemlərlə qarşılaşdı. Həmin illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizlik və qorxaqlığından yaranmış hakimiyyətsizlik sayəsində müstəqilliyimiz yenidən məhv olmaq həddinə çatmışdı. Tez-tez bir-birini əvəz edən hakimiyyət rəhbərlərini müstəqilliyimizin möhkəmləndirilməsindən və suverenliyimizin qorunmasından çox, özlərinin maddi maraqları düşündürürdü. Belə bir məqamda xalqın inamından istifadə edib hakimiyyəti ələ almış AXC-Müsavat cütlüyünün dövlət idarəçiliyindəki səriştəsizliyi, bacarıqsızlığı və siyasi səbatsızlığı daxildə yaranmış narazılıqları getdikcə gücləndirirdi.***

Bir tərəfdən xalqı gündən-günə qəzəbləndirən xaos, anarxiya və özbaşınalıq, digər tərəfdən getdikcə artan problemlər vəziyyəti daha da ağırlaşdırırdı. Xaricdən dəstək alan mənfur qüvvələr bundan istifadə edərək siyasi hakimiyyəti qanunsuz yolla ələ almaq iddiasına düşmüşdülər. Həmin qüvvələr elə AXC-Müsavat cütlüyünün daxilində yaranmış hakimiyyət hərisləri idi. Ölkədə birincilik davası onları üz-üzə qoymuşdu. Belə bir vaxtda ölkəni idarə etməkdə acizlik çəkən və xalqın inamını itirən AXC-Müsavat iqtidarı vəziyyətdən çıxış yolunu silahlı qarşıdurmada gördü.

Respublikada yaranmış son dərəcə ağır vəziyyətdə xalqı arxasınca apara biləcək siyasi liderə böyük ehtiyac yaranmışdı. Yenicə bərpa etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmış xalq yeganə çıxış yolu kimi, dövlət idarəçiliyində zəngin təcrübəsi olan ulu öndər Heydər Əliyevə müraciət etdi. Xalq böyük siyasi nüfuza malik olan ulu öndərdən Azərbaycanın düçar olduğu bu ağır fəlakətdən xilas olunmasını təkidlə xahiş etdi. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı artıq tarixi zərurət idi. Azərbaycan xalqı həyatı boyu müstəqilliyin əldə olunmasına töhfələr vermiş və onu qoruya biləcək əvəzsiz lideri dəvət etdi.

"Bundan sonrakı ömrümü də xalqıma bağışlayıram və onun xoşbəxt gələcəyi uğrunda həyatımı fəda etməyə hazıram" – deyən ulu öndər xalqın təkidi ilə respublikaya rəhbərlik etməyə razılıq verdi. Böyük tarixi şəxsiyyət ağır günlərdə hadisələrə kənardan baxa bilməzdi. Ulu öndər böyük xilaskarlıq missiyasını öz üzərinə götürərək müstəqilliyimizin, dövlətçiliyimizin qorunub saxlanılması naminə respublikada əsaslı yenidənqurma işlərinə başladı.

Ulu öndərin hakimiyyətə qayıdışı və dövlətçiliyimizi inkişaf etdirməsi ölkəmizin hər bir vətəndaşını sevindirdi. Bütövlükdə isə Azərbaycan xalqı bu tarixi qayıdışı böyük ümidlə, inamla qarşıladı. Bununla da Azərbaycan xalqının dövlətçiliyinin möhkəmlənməsi yolunda önəmli və uğurlu dönüş yarandı. Respublikamızın real təhlükələrdən xilas edilməsi, qeyri-qanuni silahlı birləşmələrin ləğv olunması, quldur dəstələrinə qarşı aparılan ciddi mübarizə, nizam-intizamın bərpası müstəqilliyimizin möhkəmləndirilməsini istəməyən və respublikada harınlığa öyrəşmiş bəzi qüvvələri ciddi narahat etməyə başladı.

Həmin ağır günlərdə baş vermiş hadisələri çox düzgün qiymətləndirən və böyük siyasi iradə nümayiş etdirən ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində tədricən ölkədə sabitlik, əmin-amanlıq yarandı, xaos, özbaşınalıq aradan qaldırıldı. Getdikcə həyat öz axarına düşdü. Respublikada yaranmış son dərəcə ağır vəziyyətin normallaşdırılması və sabitləşdirilməsi üçün sağlam qüvvələrin köməyindən istifadə olunurdu.

Heydər Əliyev 1993-cü il oktyabrın 3-də demokratik yolla, alternativ əsaslarla Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra qarşıda duran prioritet vəzifələrdən biri ölkəmizin beynəlxaq əlaqələrini möhkəmləndirmək, qonşu dövlətlərlə əməkdaşlığı genişləndirmək, dünya birliyinə inteqrasiya olunmaq idi. Həmin vaxtdan etibarən xalqın möhtəşəm iradəsi əsasında, Azərbaycan Respublikası dünya birliyinin tamhüquqlu üzvü kimi ardıcıl daxili və xarici siyasət aparmağa başladı.

1993-cü ilin axırlarında və 1994-cü ilin əvvəllərində erməni işğalçılarına qarşı mübarizədə ilk hərbi uğurlar qazanıldı. Daxili və onları dəstəkləyən xarici qüvvələrin təsirinə baxmayaraq, geriləmənin qarşısı alındı. Bununla yanaşı, cəmiyyət həyatının bütün sahələrində yeni münasibətlərə yol açmaq, islahatların əsaslarını yaratmaq üçün tədbirlər görülür və davam etdirilirdi.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı. Bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Respublika daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü idi.

Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı–Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi.

Azərbaycanın beynəlxalq aləmə sürətli inteqrasiyası və iqtisadiyyatının dirçəldilməsi respublikamızın inkişafını gözü götürməyən qüvvələri ciddi narahat edirdi. Onlar ölkədə hakimiyyəti devirmək kimi məkrli planlar hazırlayır, Heydər Əliyevi devirmək üçün min bir fitnə-fəsada əl atırdılar. Azərbaycan Respublikasının müstəqilliyini öz çirkin məqsədlərinə qurban verməyə hazır olan, respublikamızı başqa dövlətlərin himayəsində görmək, hətta onu quberniyalara belə bölmək istəyən qüvvələr məkrli planlar həyata keçirməyə başladılar. Bu çirkin niyyətləri reallaşdırmağa çalışan qüvvələr daxildəki əlaltılarından istifadə edirdilər. Sabiq baş nazir Surət Hüseynov, daxili işlər nazirinin sabiq müavini Rövşən Cavadov və başqaları, xaricdən idarə olunan Rəhim Qazıyev, Əlikram Hümbətov və Vaqif Hüseynov onların əlində alətə çevrildilər.

1994-cü il oktyabrın 2-də Surət Hüseynov və Rövşən Cavadovun başçılığı ilə dövlət çevrilişinə silahlı cəhd göstərildi, Mahir Cavadovun rəhbərliyi ilə XTPD-nin və cinayətkar ünsürlərin qüvvələri respublika prokurorluğuna silahlı basqın edərək prokurorluğun işini pozdular, dövlət əmlakına ziyan vurdular. Surət Hüseynovun Gəncədə qanunsuz yaratdığı silahlı dəstələr, məhz onun göstərişi əsasında silahlı basqın yolu ilə Gəncə şəhərində qanuni icra hakimiyyətini, hüquq-mühafizə orqanlarını, dövlət əhəmiyyətli obyektləri ələ keçirdilər və öz hərəkətlərini digər rayonlarda davam etdirməyə çalışdılar. Rövşən Cavadov hakimiyyət orqanlarını qanunsuz güzəştlərə və vəzifəli şəxsləri istefa verməyə məcbur etmək üçün bəyanatlar, tələblər irəli sürməyə başladı.

Bütün bunlar dövlət orqanlarının normal işini pozur, onların nüfuzuna xələl gətirir, əhalini qorxuya salırdı. Həmin qüvvələr birləşərək hakimiyyətə qarşı sui-qəsd törətməyə, qanuni hakimiyyəti sarsıtmağa və devirməyə çalışırdılar. Dövlət rəhbərliyinin milli birlik, vəziyyətin nizamlanması üçün atdığı addımlar, gördüyü tədbirlər, həmin qüvvələri müəyyən qədər cilovlasa da, onlar əvvəlcədən düşünülmüş məkrli planlarından əl çəkmədilər.

Ulu öndər Heydər Əliyevin vəziyyəti sabitləşdirmək üçün həyata keçirdiyi tədbirlər, düşünülmüş strategiyası, xalqın əzmi və ümummilli liderin ətrafında sıx birləşməsi çevriliş etməyə çalışan qüvvələrin qarşısını aldı. Həmin ərəfədə ulu öndərin çağırışı ilə qısa vaxt ərzində Prezident Sarayı qarşısında yüz minlərlə insan toplaşdı. Xalq çətinliklə qazanılmış müstəqilliyimizi, qanunçuluğu, demokratiyanı, qanuni seçilmiş Prezidenti, dövlətçiliyi müdafiə etdi. Xalqın bu qəzəb dalğasından qorxan Surət Hüseynov və Rövşən Cavadov öz cinayətkar niyyətlərinin həyata keçirilməsini dayandırmağa məcbur oldular. Rövşən Cavadov məsuliyyətdən yaxa qurtarmaq üçün xalq qarşısında, sonradan aşkar olduğu kimi, səmimi olmayan peşmançılığını bildirdi.

Surət Hüseynovun silahlı qüvvələri tərk-silah edildi, onun cinayət yoldaşları və müxtəlif dövlət vəzifələrində oturan məsləkdaşları həbs edildi, özü isə havadarlarının köməyi ilə respublikadan qaçaraq xaricdə sığınacaq tapdı. Rövşən Cavadov və onun tərəfdarları isə xalqa və qanuni hakimiyyətə sadiq olacaqlarını və doğru yola qayıdacaqlarını bildirdilər.

Beləliklə, mənfur qüvvələrin dövlət çevrilişi planı puça çıxdı, bütün zərərli təsirlərə baxmayaraq, müstəqil Azərbaycan möhkəmlənməkdə və nüfuzunu artırmaqda davam etdi. 27 il əvvəl ulu öndər Heydər Əliyevin müdrikliyi ilə Azərbaycan dövlətçiliyi daha bir məkrli sınaqdan alnıaçıq çıxdı.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*